

Əli Qəhrəmanov,
*sənətşünaslıq namizədi*

# "Ölülər"in ilk tamaşası mətbuat səhifələrində

*Azərbaycan teatrı yarandığı gündən tamaşaçılarıyla canlı ünsiyyətdə olmuş və səhnəsində dövrün ictimai-siyasi hadisələrini əks etdirən klassik və müasir əsərlər təcəssümünü tapmışdır. Mirzə Fətəli Axundovun (1812-1878) əsərləriylə qapılarını xalqın üzünə açan Azərbaycan teatrı, Nəcəf bəy Vəzirov (1854-1926), Əbdürrəhim bəy Haqverdiyev (1882-1941), Cəfər Cabbarlı (1899-1934)... kimi görkəmli ədib və dramaturqların əsərləriylə pərvəriş tapmışdır.*

Teatrda tamaşaya qoyulan əsərlər ilk gündən müxtəlif qəzet və jurnalların səhifələrində işıqlandırılırdı. Bu mətbu orqanlardan biri, bəlkə də birincisi XX əsrin əvvəllərində (1906) nəşrə başlayan «Molla Nəsrəddin» jurnalı idi. «Molla Nəsrəddin» jurnalı ilk nömrəsindən başlayaraq nöqsanlara gülmək yolu ilə müsəlman aləmində baş alıb gedən eybəcərlikləri islah etmək məqsədini qarşıya qoymuş və buna nail olmuşdur. Jurnalın qarşıya qoyduğu məqsəd xain xislətli bir çox insanları narahat etdiyindən onun bağlanması üçün durmadan fəaliyyət göstərirdilər.

Məlum olduğu kimi Birinci dünya müharibəsi (1941) başlayan anda «Molla Nəsrəddin» jurnalı bağlansa da, onun adı, fəaliyyəti nəinki Zaqafqaziyada, hətta çox-çox uzaqlarda – Şərq ölkələrinin mətbuat səhifələrində işıqlandırılır, xidmətlərindən bəhs edilirdi. O dövrdə Azərbaycan incəsənətinin görkəmli nümayəndəsi Üzeyir Hacıbəyov (1885-1948) jurnalın bağlanmasının təqsirini ziyalıların ictimai işlərə qarşı biganəliyində görərək yazırdı: «...«Molla Nəsrəddin» kimi səcidələrimizin əlimizdən getməyinin təqsiri hamıdan artıq intiligentlərimizin boynundadır» (1).

Jurnalın mətbuat və ədəbiyyat aləmində tutduğu mövqe Azərbaycandan kənarda da eyni dərəcədə yüksək qiymətləndirilir, milli mətbuatın yubileyi Tatarıstanda (1916) qeyd edildiyi zaman Ə.Bakıxanovun yazdığı məqalədə «Molla Nəsrəddin» jurnalının bağlanması təəssüflə xatırlanırdı: «...Bu məcmuə sözün həqiqi mənasında həcvi məcmuə idi» (2).

Jurnal iki ilə yaxın müddətdə fəaliyyətini dayandırsa da oxucuları onun nəşrə başlayacağı günü səbirsizliklə gözləyirdilər. Nəhayət ki, bir müddət ayrılıqdan sonra «Bəsirət» qəzeti xoş bir xəbərlə oxucuları sevindirdi: «Tiflis qubernatoru, «Cəlil Məmmədquluzadə cənabları tezlik ilə həmin məcmuəni əvvəlki kimi nəşr etdirmək ilə bu təşəbbüsü birtərəf edəcəkdir» (3).

Bu xoş xəbərdən təxminən iki ay sonra Cəlil Məmmədquluzadə (1869-1932) və Əliqulu Qəmküsar (1880-1919) Bakıya gəlirlər. Onların Bakıya gəlməkdə məqsədi burada «Ölülər» pyesini tamaşaya qoymaq və hasil olan pulu jurnalın yenidən nəşrinə sərf etmək idi. Bu barədə Bakı,Tiflis və digər yerlərdə çıxan mətbu orqanlarda: «Bu tamaşadan hasil olan gəlir söylədiyinə görə «Molla Nəsrəddin» məcmuəsinin yenidən nəşrinə sərf ediləcəkdir» (4) yazılırdı.

«Ölülər» əsərinin tamaşaya qoyulacağı haqqında Mirzəağa Əliyev (1883-1954) xatirələrində yazırdı: «Tiflis şəhərində olduğumdan istifadə edərək Cəlil Məmmədquluzadənin görüşünə getdim...Mirzə Cəlilin arzusu «Ölülər» pyesinin ilk tamaşasını Bakıda vermək idi... Bir qədər məsləhətləşdikdən sonra Kefli İsgəndər rolunu mənə, Şeyx Nəsrulla rolunu isə Mirzə Əliqulu Qəmküsara verdi və qalan rolların Bakıda artistlər arasında bölüşməsini rejissorla mənə həvalə etdi...Həman günü axşam Tiflisdə dram cəmiyyətinin binasında aktyorlarla söhbət edərək Cəlil Məmmədquluzadənin «Ölülər» pyesinin Bakı şəhərində qoyulmasını və Kefli İsgəndərin rolunun şəxsən mənə tapşırılmasını bildirdim. Burada mənə dedilər ki, Mirzə Cəlil «Ölülər» pyesini yazarkən Kefli İsgəndər obrazının əsasında naxçıvanlı bir vəkili tutmuşdur. Bu söhbətdən sonra birbaş mənzilimə gedib, şeylərimi yığışdırdım və haman vəkili tapmaq arzusu ilə Naxçıvana yola düşdüm... Yerli artistlərdən təəssüflə öyrəndim ki, o artıq vəfat etmişdir. Mən Bakıya qayıdıb, artist və rejissor yoldaşlarımın iştirakı ilə «Ölülər» pyesinin məşqinə başladım. Həmin

gün Mirzə Cəlilə məşqlərin başlanması haqqında teleqrafla xəbər verdim…

Mirzə Cəlil mənim vəkil dalınca Naxçıvana getdiyimdən xəbərdar deyildi: Mən əhvalatı açıb ona söylədim…Mirzə Cəlil şirin bir təbəssümlə üzümə baxdı, sonra sağ əlini üzünə və bığına çəkərək dedi:

- Dostum, Naxçıvana getməyinə sözüm yoxdur, o sənin şəxsi yaradıcılıq işindir. Ancaq Kefli İsgəndər rolunu oynamaq üçün müəyyən bir adamı təqlid eləmək səhvdir. Çünki mən minlərlə belə müşahidə etmiş, onları ümumiləşdirmiş və öz Kefli İsgəndərimi yaratmışam» (5).

«Ölülər» pyesinin tamaşaya qoyulması «Molla Nəsrəddin» jurnalının nəşrə başlanmasının onilliyinə təsadüf edir. Buna görə də bir çoxları bu tarixi hadisəni yubiley kimi keçirmək fikrini irəli sürürdülər. Hətta «Açıq söz» qəzetində Moskvadan göndərilmiş bir teleqramda dərc edilmişdi: «Müsəlman tarix və mədəniyyətini öyrənən cəmiyyətin idarəsi «Molla Nəsrəddin»in on illik yubileyini təbrik edir» (6).

«Molla Nəsrəddin»in tutduğu məsləkindən bir an belə ayrılmadığını, tənqidə layiq kim olursa-olsun, nə onun puluna, nə rütbəsinə, vəzifəsinə əhəmiyyət verməyib, onun işlərinin mənfi cəhətlərini meydana qoymadan geri çəkilmədiyini, jurnalın ilk nömrəsinin 1906-cı ilin aprel ayında nəşr olunduğunu, jurnalın 10 illiyi münasibətilə məşvərət edən cəmiyyətlərin bu yubileydə iştirak etmək istəmələri «Bəsirət» qəzetində öz əksini tapır…məşvərət etdikdən sonra aprel ayının 29-da…məcmuənin müdiri Məmmədquluzadə cənabları tərəfindən qayət sadə bir surətdə yazılmış «Ölülər» adlı komediya oynanılacaq. Deməli, həmin gün məcmuənin onilliyi münasibəti ilə yubiley tərtib ediləcəkdir. Cəmiyyətlərimizin bir neçəsi bu yubileydə iştirak etmək istəyirlər» (7).

Tiflisdə nəşr olunan «Заrафrазская речь» qəzeti isə «Molla Nəsrəddin» jurnalının müsbət cəhətlərini, bütün müsəlman Şərqində, o cümlədən Avropanın Şərq ilə maraqlanan təbəqələri arasında da məşhur olmasından yazmaqla bərabər, çox təəssüf hissiylə yubileyin keçirilmədiyini qeyd edir: «…Aprel ayının 7-də jurnalın onilliyi tamam olması yubileyi çox təəssüf ki, müsəlman ictimaiyyəti üçün qeyd edilmədən keçdi» (8).

Nəhayət aprel ayının 29-da «Ölülər» əsəri Üzeyir Hacıbəyovun müdirliyi ilə tamaşaya qoyulur. Tamaşanın müvəffəqiyyətli çıxması üçün Hüseyn Ərəblinski bütün qüvvəsini sərf edir. O, ümumi məşqlərlə yanaşı, hər bir aktyorla fərdi məşğul olur, hər kəsin oynayacağı rolun xüsusiyyətlərini, xarakterini onlara aydınlaşdırır və tamaşanın həyatı, canlı olması üçün əlindən gələni edirdi. Hüseyn Ərəblinski ilə yanaşı müəllifin özü - Cəlil Məmmədquluzadə də tamaşanın hazırlanmasında yaxından iştirak edirdi. Tamaşada Kefli İsgəndəri – Mirzəağa Əliyev (1883-1954), Şeyx Nəsrullahı – Əliqulu Qəmküsar (1880-1919), Hacı Həsəni – Ələkbər Hüseynzadə (1887-1967), Heydər bəyi – Sidqi Ruhulla (1886-1959), Şeyx Əhmədi – Mirzə Muxtar, Kərbalayı Fatmanı – Yunis Nərimanov (1895-1964) oynayırdılar.

Pərdə qalxarkən elə bil «Molla Nəsrəddin» jurnalının səhifələrində irəli sürülən məsələlər ümumiləşdirilmiş, yekunlaşdırılmış halda tamaşaçıların mühakiməsinə verilmişdi. Tamaşada ictimai məsələlər öz əksini tapırdı. Sanki «Molla Nəsrəddin»in səhifələrindəki hacılar, kərbəlayılar, məşədilər, mollalar səhnəyə gəlib danışır, ağılabatmaz hərəkətləriylə tamaşaçıları gah güldürür, gah da ağladırdılar.

Əsərin tamaşaçılara təsirini yazıçı Şəfiqə xanım Əfəndizadənin (1882-1959) «Açıq söz» qəzetində nəşr olunan məqaləsindən daha aydın hiss etmək olur: «Hacı Həsən qızı Nazlının ağlayıb bu işə narazılığını bildirəndə…bizdən bir loja o yanda oturan xanımlardan birinin dərindən ağladığını eşitdim…Başımı qaldırıb getmək və nə üçün ağladığını bilmək istədimsə də, bir o qədər də səhnədə işin nəhayətinə, Kefli İsgəndərin nə cavab verəcəyinə, Nazlının başına nə əhvalatlar gələcəyinə maraqlı idim.

Nə səhnəni tərk edə bilirdim, nə də ağlayandan ayrıla bildim…daha səbr edə bilməyib başımı çevirdim. Gördüm ki, orta yaşlı bir qadın başını iki qolları arasına alıb ağlayır…

Yanımdakılar bunu sakit etməyə çalışırsa da, ürəyini saxlaya bilməyirdi.

Mən bu halda teatr və səhnəni yaddan çıxarıb qadın olduğu lojaya getdim və onun nə üçün ağladığını cavan bir qadından sual etdim.

Qadın belə cavab verdi:

- Bunu atasının sağlığında, dörd yaşında ikən adaxlayıblar. Səkkiz yaşına çatanda atası rəhmətə gedibdir. Atasının rəhmətə getməsindən mənfəətdar olub istəyənlərdən bir qoçu cavaba baxmayıb, qızı qaçırmağa hücum etmişdir…Çox qorxu çəkdikdən sonra qızı doqquz yaşında, adaxlandığı oğlanın evinə köçürmüşlər.

İndi burada olan əhvalatları görüb öz uşaqlığı və özünün yalvarıb ağlaması yadına düşür. Ona görə də ağlayır.

Biz bunu sakit etməyə məşğul ikən teatr da qurtardı. Biz də qadını sakit eləyib birlikdə çıxdıq. Yolda bu qadın öz başından keçənləri bizə söylədi.

«…Budur, bu zülmlər mənim başıma gəldikdən sonra bunların hamısını iki saatda gözümün qabağında göstərdikləri üçün daha özümü saxlaya bilmədim. Mənim itxtiyarım əlimdə olsaydı, bu teatrı yazanı tapıb onun barmaqlarından öpərdim. Elə bilirsən ki, bizim ailələrin arasında ömür keçirib başımıza gələnləri də təsvir etmişdir» (9).



Nəcəf bəy Vəzirov isə «Kaspi» qəzetindəki məqaləsində Şeyxin elədiyi hərəkətləri gördükdə «Özümü güc ilə saxladım. Az qalmışdı qışqıram ki: - Əclaf!…» (10) yazırdı.

Tamaşanın gedişi barədə «Açıq söz» qəzetində isə yazırdı: «Belə təsirli səhnələrin nəticəsi idi ki, «hər pərdənin arxasında müəllif cənabları alqışlarla səhnəyə çağırılır və təbrik edilirdi. Nəhayət üçüncü pərdədə bu təbrik bir nümayiş halını aldı. Mətbuat, ədəbiyyat, məktəb və səhnəyə mənsub olanlardan ibarət bir dəstə hilalvari səhneyi-tamaşaya düzülüb alqışlarla müəllif cənablarını çağırdılar. Müəllif səhnəyə çıxınca bir alqış tufanı qopdu» (11).

Mətbuat səhifələrində verilən bu məlumatlardan görünür ki, hələ o vaxta qədər heç bir əsər bu qədər gurultu qoparmamış və bu qədər böyük alqışlarla qarşılanmamışdır.

May ayının birində çıxan qəzetlər bütövlüklə «Ölülər» əsərinin tamaşasından bəhs edir, ilk tamaşanın təsiri altında olan ictimai xadimlər, yazıçılar, mətbuat işçiləri tamaşa haqqında fikirlərini yazırdı.

Mirzə Cəlilin dostları, o dövrün açıq fikirli, tərəqqipərvər, milli zəmində köklənən ziyalıları – Nəriman Nərimanov (1870-1925), Üzeyir Hacıbəyov (1885-1948), Nəcəf bəy Vəzirov (1854-1926), Hüseyn Cavid (1882-1941), Seyid Hüseyn (1887-1937) «Ölülər» əsəri haqqında özlərinin təəssüratlarını yazır, tamaşanın ictimai-siyasi əhəmiyyətini yüksək qiymətləndirirlər. Bununla yanaşı Mirzə Cəlilə qarşı mürtəce fikirdə olanlar, xain xislətli tənqidçilər də «Ölülər» əsərini gözdən salmağa çalışırdılar. «Yeni iqbal» qəzetində Orucov «Ölülər»in geniş tamaşaçı kütləsinə bağışladığı təsiri azaldır, «millətə yaraşmayan, xalqın adət və ənənələrinə zidd olan» (12) bir əsər kimi qələmə verirdi.

«Ölülər» əsərini müsbət qiymətləndirən müəlliflərin rəyləri xain xislətli tənqidçilərə tutarlı cavab olmaqla Nəriman Nərimanov (1870-1925) «Ölülər»i «məzmunu eynilə həyatımızdan götürülmüş, ideyası inqilablı drama» adlandırır, Kazım oğlu (Seyid Hüseyn) «Ölülər»dəki satiranı Qoqolun (1809-1852), V.Hüqonun (1802-1855) satirası ilə müqayisə edirdi. «Mən deyirəm ki, bir əsr bundan əvvəl Fransa əhvali-ictimaiyyətində «Səfillər» nə isə…bizə də «Ölülər» o…təsiri bağışlayacaq…səhnəmizdə rusların «Revizor»u («Müfəttiş»i – Ə.Q) qədər ölməz mövqe tutacaqdır» (11).

Kazım oğlunun ədəbi müşahidəsinin dərinliyi onda idi ki, o, «Ölülər»lə «Müfəttiş» arasındakı yaxınlığı görməklə yanaşı, onların arasındakı ciddi fərqi də görürdü. Kazım oğlu «Ölülər»in müəllifinin daha irəli getdiyini, onun müsbət qəhrəman surəti gətirdiyini göstərir və Azərbaycan realizmindəki müsbət qəhrəman məsələsi haqqında fikir yürüdürdü. «Açıq söz», «Kaspi» qəzetlərində Seyid Hüseyn Orucova cavab olaraq yazırdı: «Molla Nəsrəddin»in «Ölülər»i ölü fikirləri dirildəcək qədər mahiranə bir üsulla yazılmışdır» (13). Orucov isə öz qəzetində tənqid etdiyi «Ölülər» əsərinin yenidən oynanılacağından xəbər verirdi: «Camaatın arzusuna görə möhtərəm Cəlil Məmməquluzadə cənabları tərəfindən qələmə alınmış «Ölülər» faciəsi şənbə günü may ayının 10-da ikinci dəfə mövqeyi tamaşaya qoyulacaqdır» (14).

«Ölülər» əsəri ikinci dəfə tamaşaya qoyulduqdan (10 may 1916) sonra Azərbaycan qadınları Mirzə Cəlilə gözəl bir səccadə hədiyyə verirlər. Mirzə Cəlil isə onlara minnətdarlıq hissilə yazır: «…səmimi qəlbdən deyirəm ki, həmin töhvə gələcək ömrümdə bəndə üçün bir qiymətli yadigar hesab olunacaqdır» (15).

«Ölülər»in ilk tamaşasının səsi Yaxın Şərq ölkələrinə qədər yayılır. Hər yerdə böyük maraq doğurur. Belə ki, qəzetlər yazırdı: «Özbəkistanda Taşkənd teatr cəmiyyəti bu qərara gəlmişdir ki, müəllifdən «Ölülər» pyesinin Taşkənddə səhnəyə qoyulmasına və əldə edilən pulun «Molla Nəsrəddin» jurnalının nəfinə verilməsinə icazə versin…Cəlil Məmməquluzadə buna görə də Zakaspi oblastına və xüsusən də Taşkəndə getmək fikrindədir» (10).

May ayının 16-da «Molla Nəsrəddin» jurnalının fəal iştirakçısı Salman Mümtaz Əsədov (1883-1938) başda olmaqla Aşqabad şəhər ziyalılarından müəllim və eyni zamanda «Molla Nəsrəddin» jurnalının şairlərindən Məmmədəli Manafzadə Sabit, şair Məmmədhüseyn Məsud, Mir Fəttah Musəvi, Bakı qəzetlərinin Aşqabad müvəkkili, maarifpərvər Mir Əhməd Mirdadaşzadə, teatr həvəskarlarından Cəfər Talıbov, Rza Səmədov, Yədulla Rzayev, Əziz Cavadov, Qulam Məmmədli (Qulam Məmmədli o vaxt Aşqabadda yaşayır, mətbəədə mürəttiblik edirdi) Cəlil Məmmədquluzadəni və Əliqulu Qəmküsarı hörmətlə qarşılayırlar (16, s.334-335). Aşqabadda yerli rus dilində çıxan qəzetdə bu haqda məlumat verilirdi…Onunla birlikdə jurnalın baş əməkdaşı, istedadlı şair, satirik Əliqulu Nəcəfov da gəlmişdir (17).

Onlar Aşqabadda «Ölülər»in oynanılmasını qərara alırlar. «Fürudini» məktəbində məşqlər başlanır. Rollar aşağıdakı kimi bölünür. Şeyx Nəsrullah – Əliqulu Qəmküsar, İsgəndər – Rzaqulu Abdullayev, Şeyx Əhməd – Cəfər Tahirov, Hacı Həsən – Əziz Cavadov, Kərbalayi Fatma – Əli Məmmədov, Qulam Məmmədəliyə isə kiçik bir rol həvalə edildi (16, s.335). Bu zaman gözlənilməyən hadisə baş verir. Aşqabadda bəhayi məzhəbinə mənsub olan dindarlar onların karikaturalarının «Molla Nəsrəddin» jurnalında (1913, №7) nəşr olunduğundan tamaşanın oynanılmasını əngəlləmək üçün Polismeyster Alekseyevə rüşvət verirlər. Beləliklə «Ölü-

lər»in Aşqabadda oynanılması baş tutmur. Bu barədə «Yeni iqbal» qəzetində xəbər dərc olunur: «...Bir neçə gün Aşqabadda iqamət etdikdən sonra «Molla Nəsrəddin» məcmuəsinin müdirləri oradan Taşkəndə doğru hərəkət etmişdilər. «Ölülər»in oynanılmasına icazə verildiyi təqdirdə Taşkənddə oynanılacaqdır (18).

Özbək səhnəsinin görkəmli xadimi Niyazi Həkimzadə (1889-1929) Taşkənddə olmadığından Mirzə Cəlili və Əliqulu Qəmküsarı özbək ziyalıları və teatr xadimləri qarşılayırlar. Abdulla Övlani (1878-1934) «Ölülər»in Taşkənddə hazırlanıb oynanılmasına kömək göstərir. O, özü əsəri özbək dilinə tərcümə edir. Tamaşa Abdulla Övlaninin rəhbərlik etdiyi «Turan türbəsi» adlı dram cəmiyyətində rejissor Nizaməddin Xocayev tərəfindən hazırlanır. Bu işdə Kazan tatarlarından Məmməd Qazi Yunusov da ona yardımçılıq edir. Əsər «Turan türbəsi» dram cəmiyyətinin üzvləri tərəfindən tamaşaya qoyulur. «Vakt» qəzetində olan məlumata görə «Ölülər» Taşkənddə Türküstan (Özbək) şivəsinə tərcümə edilib yerli həvəskarlar tərəfindən səhnəyə qoyulub və böyük müvəffəqiyyətlə alqışlanmışdır (19).

Cəlil Məmmədquluzadə Taşkəndə qayıdarkən iyun ayının ortaları Orenburqda olur. Burada onları «Vakt» qəzetinin redaktoru, tatar ictimai xadimi və yazıçısı Fateh Kərimi başda olmaqla ziyalılar qarşılayırlar. Artistlər Türküstana qastrola getdikləri üçün «Ölülər» əsərini tamaşaya qoymaq Orenburqda mümkün olmur.

«Ölülər» əsərinin tamaşaya qoyulması barədə mətbuatın verdiyi xəbərlərin çoxunda tamaşadan hasil olan pulun «Molla Nəsrəddin» jurnalının yenidən nəşr olunması üçün Bakıdan kağızın, nəşriyyat üçün lazım olan digər avadanlıqların alınmasına sərf edildiyi bildirilirdi.

Bu tarixi hadisədən bir əsrə yaxın zamanın ötməsinə baxmayaraq böyük demokrat Cəlil Məmmədquluzadənin «Ölülər» əsəri teatrımızda uğurla tamaşaya qoyulur və səhnəmizi nuruyla işıqlandırır.

## Ədəbiyyat


*1. «Yeni İqbal» qəzeti, 18 dekabr 1915-ci il*

*2. «An» jurnalı, 1916, №1 (Tatarıstan)*

*3. «Bəsirət» qəzeti, 13 fevral 1916-cı il*

*4. «Açıq söz» qəzeti, 14 aprel 1916-cı il*

*5. «Ədəbiyyat» qəzeti, 24 dekabr 1944-cü il; C. Məmmədquluzadə. Məqalələr, xatirələr. Bakı, EA nəşriyyatı, 1967, səh.342-344*

*6. «Açıq söz» qəzeti, 15 aprel 1916-cı il*

*7. «Bəsirət» qəzeti, 16 aprel 1916-cı il*

*8. «Zaqafqazskaya reç» qəzeti, 28 aprel 1916-cı il*

*9. «Açıq söz» qəzeti, 17 may 1916-cı il*

*10. «Kaspi» qəzeti, 1 may 1916-cı il*

*11. «Açıq söz» qəzeti, 1 may 1916-cı il*

*12. «Yeni İqbal» qəzeti, 3 may 1916-cı il*

*13. «Açıq söz» qəzeti, 2 may 1916-cı il; «Bəsirət» qəzeti, 7 may 1916-cı il*

*14. «Yeni İqbal» qəzeti, 5 may 1916-cı il*

*15. «Açıq söz» qəzeti, 13 may 1916-cı il*

*16. Cəlil Məmməqduluzadə. Məqalələr, xatirələr. Bakı, 1967, səh.334-335*

*17. «Aşxabad» qəzeti, 24 may 1916-cı il*

*18. «Yeni İqbal» qəzeti, 13 iyun 1916-cı il*

*19. «Vakt» qəzeti, 17 iyun 1916-cı il*



**MEA Naxçıvan bölməsinin İncəsənət, dil və ədəbiyyat institutu tərəfindən təqdim edilib - 20.12.2006.**
**Rəyçi: sənətşünaslıq doktoru, professor İ.Kərimov**


### The first spectacle of "Dead men" in the papers


### Summary

The history of elucidation one of the main works of G.Mammedguluzade's "Dead men" in the papers hes been looked into. The articles in the papers "Achig soz", "Caspi", "Yeni Igbal", "Basirat" and etc. have been analysed.


### Премьера «Олюляр» на страницах печати


### Резюме

В статье раскрывается история осещения в печати произведения Джалила Мамедкулузаде «Олюляр», анализируются материалы о премьере спектакля в газетах «Ачыг соз», «Каспи», «Ени игбал», «Басират» и др.